# XALQ YAZIÇISI ELÇİNƏ “TÜRK DÜNYASINA XİDMƏT” MÜKAFATI TƏQDİM OLUNMUŞDUR

17.05.2007 [16:37]



AzərTAc-ın xüsusi müxbiri xəbər verir ki, mayın 16-da Ankaradakı Dədəman hotelində Türk Dünyası Yazarlar və Sənətçilər Vəqfinin “Türk dünyasına xidmət” mükafatının təqdimatı mərasimi keçirilmişdir.

Vəqfin idarə heyətinin sədri, professor Yəhya Akengin on bir il əvvəl təsis olunmuş bu mükafatın türk dünyasının mədəni və mənəvi yüksəlişinə töhfələr vermiş dövlət adamları, ədiblər və incəsənət xadimlərinə təqdim olunduğunu bildirmişdir. Mükafatın ilk laureatları arasında ümummilli liderimiz Heydər Əliyev və Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəl də vardır. Ulu öndərimiz bu mükafata 2002-ci ildə Azərbaycanda latın əlifbasına keçidlə bağlı gördüyü tədbirlərə görə layiq görülmüşdür. Ədiblərimiz Anar və Bəxtiyar Vahabzadə də mükafatın laureatları olmuşlar.

Vəqfin idarə heyətinin qardaş ölkənin tanınmış ictimai-siyasi xadimləri, alimlər, keçmiş dövlət naziri Namik Kamal Zeybək, professor Əbdurrəhman Gürəl, tanınımış aktyor Nihat Hakangüney də olmaqla, 40 üzvü vardır.

Builki mükafatın laureatları arasında dünyanın müxtəlif dillərində 100-ə yaxın, o cümlədən Türkiyədə 15 kitabı nəşr olunmuş Azərbaycanın xalq yazıçısı Elçin də vardır. Yazıçının qardaş ölkədə nəşr olunmuş “Mahmud və Məryəm”, “Ağ dəvə”, “Ölüm hökmü” romanları, “Şuşa dağlarını düman bürüdü” hekayələr toplusu, “Ədəbi düşüncələr” kitabı geniş oxucu kütləsinin sevə-sevə oxuduğu əsərlərdəndir. Ədibimizin “Qatil” əsəri və digər pyesləri dəfələrlə Ankara, İstanbul, Ərzurum teatrlarının səhnələrində böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Türk dünyasının bu qiymətli mükafatını xalq yazıçısı Elçinə təqdim edən Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəl hələ 1967-ci ildə Bakıya səfər edərkən, o zaman tələbə olan Elçinlə üz-üzə gədiyini və 40 ildən sonra yenidən bir yerdə olduqlarını diqqətə çatdıraraq, bunun ölkələrimizin xalqlarının bir amala – türkçülük ideyasına bağlılığı ilə əlaqələndirmişdir.

Mükafata görə Türk Dünyası Yazarlar və Sənətçilər Vəqfinə təşəkkürünü bildirən xalq yazıçısı Elçin qeyd etmişdir ki, hələ keçmiş Sovet İttifaqı dövründə, kommunist ideologiyasının ən böyük düşməni Türkiyə olduğu zamanda Azərbaycanın görkəmli yazıçıları, mütəfəkkirləri pantürkist damğası ilə həbs olunaraq, məhv edilmişdilər. Qardaş ölkəyə 1979-cu ildə etdiyi ilk səfərindən sonra “Yaxın, uzaq Türkiyə” adlı kitab yazdığını, o illərdə “Yaxın, yaxın Türkiyə” adlı əsərin də nə zamansa yazılacağını arzuladığını bildirən Elçin, artıq bu arzusunun gerçəkləşdiyini, bu gün BMT-nin qərargahının qarşısında Türkiyə ilə yanaşı, daha 5 türk dövlətinin bayrağının dalğalandığını söyləmişdir. Qeyd etmişdir ki, bu gün türk dünyası özünün yüksək elmi, mədəniyyəti və təhsili ilə qarşısında olan bütün maneələri aşmağa qadirdir. Ümummilli liderimiz Heydər Əliyevlə Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəl arasındakı dostluq və qardaşlığın Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətlərinin rəmzi olduğunu bildirən yazıçı, dövlətimizin başçısı İlham Əliyevin də bu ənənəni uğurla davam etdirdiyini vurğulamışdır.

Xalq yazıçısı Elçinlə yanaşı, məşhur türk pianoçusu Tuluyhan Uğurlu, Rumıniyada yaşayan tarixçi-alim Mustafa Əli Məhmət, makedoniyalı yazıçı və teatr sənətçisi Fəxri Kaya, tarixçi alim Aşık Səfai, TRT-nin sənədli filmlər redaksiyası və “Kanal-7” televiziyasının “İpək yolu” proqramının yaradıcılarına da “Türk dünyasına xidmət” mükafatı təqdim olunmuşdur.

Mərasimdə ölkəmizin Ankaradakı səfiri Zakir Həşimov, türkdilli ölkələrin diplomatik nümayəndəliklərinin başçıları iştirak etmişlər.

Təqdimat mərasimi Türkiyənin informasiya agentlikləri, televiziya kanalları və qəzetləri tərəfindən geniş işıqlandırılmışdır.

© Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır